# Vətənpərvər gənclik gələcəyimizin qarantıdır

Ulu Öndərin gənclər siyasəti bu gün də davam və inkişaf etdirilir. Azərbaycanda dövlət gəncliyin hamisidir. Mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaratmışdır. Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb.

Dövlətin gənclər siyasəti və gənclərin fəaliyyəti qarşılıqlı asılılıq prinsipi üzərində müəyyənləşdirilir ki, bu da gənclərin inkişafına üstünlük verməyə və müvafiq siyasət həyata keçirmə mexanizmlərinin yaradılması və kifayət qədər resursların ayrılması vasitəsilə bu inkişafa nail olmağa imkan verir.

→ 13

# Vətənpərvər gənclik gələcəyimizin qarantıdır

**Gənclik xalqın gələcəyinin, inkişafının təməl daşı, müstəqilliyimizin qorunub saxlanılmasının, gələcəyimizin qarantıdır. Ölkəmizdə gəncliyin inkişafı, gənclərin dünya birliyinə inteqrasiyası və bu istiqamətdə tədbirlərin görülməsi dövlət siyasətinin prioritetlərindəndir.**

Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətədavamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bu sözləri gənclərə olan ümidləri və gözləntiləri çox yaxşı ifadə edir: "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq". Böyük Azərbaycanlı hesab edirdi ki, Azərbaycanın parlaq gələcəyi yalnız savadlı, bilikli, intellektual səviyyəsi yüksək olan gənclərdən asılıdır.

1993-cü ildə Ulu Öndərin hakimiyyətə qayıdışı ilə gənc nəslə xüsusi diqqət göstərilməsi dövlət siyasətinin prioritet sahələrindən birinə çevrildi. O zaman qarşıda duran əsas məsələ görüləcək işlərlə bağlı vahid dövlət siyasətinin reallaşdırılmasının təmin edilməsi idi. Bu məqsədlə gənclər siyasətini tənzimləyən normativ hüquqi baza formalaşdırıldı və Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli fərmanı ilə bu bazanın həyata keçirilməsi üçün cavabdeh olan mərkəzi icra hakimiyyəti orqanı - Gənclər və İdman Nazirliyi yaradıldı. Qısa bir müddətdə gənclərin sağlamlığı, təhsili, məşğulluğu, sosial müdafiəsi və digər sahələrdə dövlət tərəfindən genişmiqyaslı tədbirlər reallaşdırıldı. 1996-cı il fevralın 2-də isə Ulu Öndərin təşəbbüsü ilə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. Heydər Əliyevin 1997-ci ildə imzaladığı sərəncamla 2 Fevral Azərbaycan Gəncləri Günü elan edildi. 2002-ci ildə isə "Gənclər siyasəti haqqında" qanun qəbul olundu.

Ulu Öndərin gənclər siyasəti bu gün də davam və inkişaf etdirilir. Azərbaycanda dövlət gəncliyin hamisidir. Mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaratmışdır. Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb.

Dövlətin gənclər siyasəti və gənclərin fəaliyyəti qarşılıqlı asılılıq prinsipi üzərində müəyyənləşdirilir ki, bu da gənclərin inkişafına üstünlük verməyə və müvafiq siyasət həyata keçirmə mexanizmlərinin yaradılması və kifayət qədər resursların ayrılması vasitəsilə bu inkişafa nail olmağa imkan verir.

Gənclərlə iş sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və infrastrukturun inkişafı üçün 2011-ci ildə Gənclər və İdman Nazirliyinin yanında Gənclər Fondu yaradılmışdır. Gənclər təşkilatlarının və ayrı-ayrı gənclərin ictimai əhəmiyyət daşıyan təşəbbüslərini dəstəkləmək məqsədilə Prezidentin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu təsis olunmuşdur. Dövlət başçısının 2019-cu il 1 oktyabr tarixli "Azərbaycan Respublikasının Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı da gənclərə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Ölkədə aparılan sosial siyasətin bir istiqaməti də rəqabətqabiliyyətli insan kapitalının formalaşması və yüksəkixtisaslı kadrların yetişdirilməsidir. Bu məqsədlə son 20 ildə dövlət büdcəsindən təhsilə ayrılan xərclər 19 dəfə artmışdır.

Azərbaycanda həyata keçirilən gənclər siyasətinin mərkəzində dayanan əsas xətlərdən biri də Azərbaycan gənclərinin vətənpərvərlik, Vətənə sədaqət ruhunda tərbiyə edilməsidir. Çünki tarixboyu üzləşdiyimiz reallıqlar və Vətən müharibəsindən sonra Azərbaycanın diktə etdiyi reallıq bir daha göstərdi ki, gənc Azərbaycan oğullarının Şuşa qayalarında, bütün Qarabağ torpağında yazdıqları qəhrəmanlıq salnaməsinin kökündə məhz azərbaycançılıq ideologiyası, Vətənə, yurda sədaqət, torpağa bağlılıq amilləri dayanır.

Dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi və müstəqilliyimizin dərk edilməsi və dəyərləndirilməsi, onlar tərəfindən innovativ düşüncə və rəqabətədavamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqi vacibdir.

Bu gün Azərbaycan Respublikasının güclü, demokratik rifah dövləti olması, ölkədə bütün vətəndaşlara, xüsusən gənclərə geniş və bərabər imkanların yaradılması, dövlətin yeni nəslə və onun təhsilinə diqqət və qayğısı mənim də həyatda öz yerimi tapmağımda, bir kadr kimi yetşməyimdə və inkişafımda böyük rol oynamışdır. Bakı Dövlət Universitetində bakalavr və magistr təhsilimi fərqlənmə diplomu ilə bitirdikdən sonra fəaliyyətimi gənc tədqiqatçı və pedaqoq kimi həmin universitetdə davam etdirməyim, qısa zaman kəsiyində beynəlxalq qrant layihələrinə qoşula bilməyim ölkədə gənclərə yaradılan sağlam mühitin, göstərilən böyük etimadin nəticəsidir. Ciddi elmi tədqiqatların iştirakçısı, ölkədə və xaricdə nüfuzlu jurnallarda dərc olunan məqalələrin həmmüəllifi olmaq, elmi seminar və konfranslarda çıxış etmək qürurvericidir. Təhsil və elmlə yanaşı, hər bir vətənpərvər gənc kimi mən də ölkənin ictimai-siyasi həyatında, demokratik cəmiyyət quruculuğunda fəal şəkildə iştirak etməyə, daim öz fikir və təkliflərimi bildirməyə çalışıram.

***Əsmər HÜSEYNOVA,***
***Bakı Dövlət Universitetinin Təhsil, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin əməkdaşı***

Azərbaycan.- 2024.- 2 fevral, № 22.- S.1, 13.